# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında müzakirələrə sədrlik edib




**Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında iştirak etmək üçün Cenevrə şəhərinə işgüzar səfərə gedib. Azərbaycan parlamentinin spikeri assambleyanın dünən davam edən müzakirələrinə sədrlik edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirələrdə Avstraliya, Kolumbiya, Mozambik, Serbiya, Liviya, Finlandiya, Macarıstan, İspaniya, Türkiyə, Uruqvay, Belçika və digər ölkələrin parlament təmsilçiləri çıxış ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova assambleyanın "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda keçirilən ilk gün müzakirələrində çıxış edib.

***"Azərbaycan"***




Azərbaycan. - 2025.- 22 oktyabr (№ 226).- S.5.